**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QLOBALLAŞMA VƏ ONUN MÜASİR SİYASİ PROSESLƏRƏ TƏSİRİ

| | |
|---|---|
| İxtisas: | 5904.01 – "Siyasi institutlar və sistemlər" |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Şahmar Bəybaba oğlu İbadov** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Gülzar İsaxan qızı İbrahimova**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, dosent
**Kənan Hüseyn oglu Allahverdiyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Səyavuş Kamran oglu Qasimov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Zümrüd Eldar qizi Məlikova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

## Giriş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin sonu və XX əsrin əvvəllərində müasir dünyanın bir sıra ölkə və regionlarında siyasi yenidən təşkil əsaslı dərəcədə aktuallaşdı, siyasi proseslər probleminə yanaşmalarda bir çox dəyişikliklər baş verdi. Əksəriyyət tərəfindən mühüm sosial proses kimi qəbul edilən bu amil beynəlxalq aləmdə ölkələr arasında köhnəlmiş əlaqələrin şəklini dəyişən və planeti sürətli şəkildə vahid iqtisadi, siyasi, sosial və mədəni informasiya fəzasına çevirən qloballaşma prosesindən əhəmiyyətli dərəcədə asılıdır. Belə yanaşma mövzunun elmi araşdırılmasını zəruri edir.

Dünyanın siyasi qloballaşması idarəetmə səviyyəsini şaxələndirir, funksiya və səlahiyyətlərin əhəmiyyətli hissəsi dövlət səviyyəsindən milli səviyyənin fövqündə duran səviyyəyə keçir. Hazırda bu səviyyədə ictimai təmsilçilik, iştirak və nəzarət mexanizmləri, bir qayda olaraq, zəif və qeyri-müəyyəndir. Göstərilən məqamlar əhalinin siyasi proseslərdə iştirakına olan marağı azaldır, ona nəzarət edilməsi üçün əksər oturuşmuş formaların mənasını itirir. Daha konkret olaraq tədqiqat mövzusunun aktuallığını aşağıdakı müddəalarla ifadə etmək olar:

-Qərb nəzəriyyəçiləri qloballaşmanı mədəniyyətlərin müxtəlifliyi ilə bağlasalar da, müxtəlif yerlərdə dünyanın qlobal vəziyyətinə reaksiyalar kifayət qədər güclüdür. Mədəni fərqlə yanaşı, siyasi, ideoloji planlar geniş miqyasda etiraf edilir. Qlobal problemlərin qlobal həlllər tələb etdiyi beynəlxalq münasibətlərin qloballaşması, milli siyasi ərazilərin və artan məlumatlanmanın beynəlmiləlləşməsi, siyasətdə yeni, daha vacib funksiyaların yarandığını göstərir. Bu isə *qloballaşmanın siyasi aspektdə* araşdırılmasını aktuallaşdırır;

-Silahların ləğvi, beynəlxalq terrorizmə qarşı mübarizə, cinayət, insan hüquqlarnın müdafiəsi, iqlim dəyişikliyi, səhralaşmanın, konfliktlərin qarşısının alınması, birgə əməkdaşlıq, sülhə həvəs- ləndirmə, sülhün yaradılması və həyata keçirilməsi, xarici müdafiə və investisiyalar, xarici ticarət problemləri, sürətlə artan əhali sayı … bunlar "qloballaşma" ilə məşğul olan siyasətçilər üçün məsələlələrin siyahısının sonsuz olduğunu və tədqiqinin *zəruriliyini* göstərir;

-Qloballaşmanı suveren dövlətlər arasındakı sədləri qaldıran, cəmiyyət daxili sosial münasibətləri yeni məcraya salan, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə daxil edərək sərt şəkildə məhdudlaşdıran proses kimi qəbul edirlər. İnsanların daxilində bu prosesə mane

olmaq və millətçilik, təməlçilik və s. şəkildə özünə qapanmaya meyl səciyyəvi olur. Bu zaman “qloballaşma” problemləri daha çox müzakirə tələb edən müasir problemlərdən sayılır və *bu mövzunu aktual* edir;

-Milli institutlar və onların fövqündə duran institutların effektivliyi qloballaşma proseslərinin nizamlanması və onların kortəbiliyinin məhdudlaşdırılması baxımından aşağı səviyyədədir. Odur ki, qlobal siyasi proseslərin mövcud idarəetmə mexanizmlərinin modifiksiyasında siyasi təsisatların fəaliyyətinin liberal-demokratik paradiqmasının saxlanmasını təmin edə bilər ki, bu da mövzunun aktuallığını şərtləndirir;

-XXI əsrdə, xüsusilə COVID-19 pandemiyasından sonra qloballaşma, fərqli platformalarda fərqli istiqamətləri ilə müzakirə edilən bir mövzu halına gəlmiş, onun təsiri müxtəlif qitələrdə və regionlarda cəmiyyət həyatının bütün sferalarına, bilavasitə insanların əksəriyyətinin gündəlik yaşam tərzinə daxil olmuş, insanlar məqsədli və ya məqsədsiz şəkildə “qloballaşma” proseslərinə cəlb edilmişlər. Bu is mövzunun *elmi araşdırılma* istiqamətini müəyyən edir;

-Azərbaycanın XX əsrin sonu – XXI əsrin əvvəlində əsas məzmunu siyasi proses və təsisatların transformasiyasından ibarət olan keçid dövrünün xüsusilə mühüm nəzəri və praktiki problemi Azərbaycan dövlətinin bütövlüyünü saxlamağa qadir olan və Azərbaycanın həm çağdaş ehtiyaclarına, həm də uzunmüddətli maraqlarına cavab verən, ümumdünya siyasi inkişafına adekvat olan sabit və səmərəli siyasi sistem yaradılmasıdır. Beləliklə, görürük ki, siyasi proses və təsisatlar probleminin təhlili, getdikcə sürətlənən qloballaşma şəraitində onların inkişaf xüsusiyyətlərinin öyrənilməsi, eləcə də dünyanın siyasi qloballaşmasının təsiri altında müasir Azərbaycanda siyasi proses və təsisatların transformasiyasının araşdırılması aktual nəzəri və praktik əhəmiyyət kəsb edir. Bu məsələlərin tədqiq edilməsi həm dünya siyasi prosesində, həm də Azərbaycan Respublikasında müasir siyasi proseslərin strukturunda çağdaş dəyişikliklərin izah edilməsi və şəraitin dəyişilməsinin proqnozlaşdırılması üçün kifayət qədər ciddi imkanlar açır.

Problemin ölkə və əcnəbi siyasi təfəkküründə elmi cəhətdən yetərincə işlənməməsi onun xüsusi təhlilini tələb edir. Qloballaşmanın bəzi xüsusiyyətləri Avropa, Şərq və Qərb ölkələri müəlliflərinin müx təlif elmi və publisistik əsərlərdə öz əksini tapmışdır.

Elmi fikirdə mövzu ilə əlaqəli bir neçə tədqiqat qrupu ayırılıb.

Müəlliflər qloballaşma anlayışı, siyasi proseslərin transformasiyası məsələlərini, habelə dünyanın siyasi qloballaşması prosesinin inkişaf xüsusiyyətlərini nəzərdən keçirirlər.

Tədqiqatların bir istiqaməti dünyanın qloballaşması prosesinin nəzəri-metodoloji problemlərinin, eləcə də onun siyasi aspektlərinin öz əksini tapdığı elmi fikir sahəsindəki monoqrafiya və digər araşdırmaları əhatə edir. Qərb ənənələrinə görə qloballaşma dünyanın mövcud vəziyyəti kimi və ya onda baş verən proseslər kimi təsvir edilir. Belə yanaşmalar xarici tədqiqatçılardan S.Hantinqon, U.Bek, Z.Brzezinski, F.Fukuyama və s. alimlərin əsərlərində əks olunur[1].

Rusiyalı müəlliflərdən M.B.İlyin, İ.Lukaşuk, Y.A.Yakovets və başqalarının tədqiqatlarında qlobal problemlərə daha çox müraciət edilir və bu tədqiqatlarda qlobal dünya haqqında mühakimələr davamlı inkişaf konsepsiyası ilə əlaqələndirilir[2].

Siyasi həyat dinamıkasının təhlili ənənəsi uzaq keçmişdə formalaşmış və cəmiyyətin dinamik ölçü paradiqmasında meydana gələn elmi istiqamətlər müvafiq olaraq dəyişiklik, çevrilmə, inkişaf və modernləşmə nəzəriyyələrini yaratdı. Bura T.Parsons və başqalarının işlərini aid etmək olar[3].

Xarici dövri mətbuatda siyasi institut və proseslərin mahiyyətinin təhlilinə, onların transformasiyası məsələlərinə həsr olunan monoqrafiya və məqalələrə A.Solovyeva, A.Bentli, Q.Almond, L.S.Mamut, M.Veber və s. müəlliflərin araşdırmalarını göstərmək olar. Qlobal siyasətlə bağlı

---

[1] Samuel P. Huntington. Democracy`s Third Wave// Journal of Democracy Vol.2. №.2 Spring.- 1991, pp.12-35; Бек У. Что такое глобализация? Ошибки глобализма - ответы на глобализацию. М.: Прогресс-Традиция, -2001.-304 с.; Brze- zinski, Z. The Choice: Global Domination or Global Leadership. New York: Basic Books.-2005.-256 p.; Brzezinski, Z. Strategic Vision: America and the Crisis of Global Power. New York: Basic Books.- 2013.-433 p.; Fukuyama, F. Sekond Tho-uqhts:The End of the History 10 Years later. // NPQ:New Perspectives Quart- lu?Summer -1999, Vol 16, issue 4, pp.40.; Fukuyama, F. The pandemic and political order: It Takes a State," Foreign Affairs 99, - 2020. p. 26–32.

[2] Ильин М.В. Политическое самоопределение России/ Pro et contra. т. 4, № 3, - 1999.- 74 с.;Лукашук И.И. Глобализация и государство. Журнал российского права. 2001, №4, с. 64 -65.; Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций/ Яковец Ю.В.; Междунар. ин-т// М.: Экономика,- 2003.- 441 с.

[3] Парсонс Т. Система современных обществ Текст. / Т. Парсонс. М.: Аспект пресс. -1997.- 425 с.; Иноземцев В. Глобализация: иллюзии и реальность // Свободная мысль – XXI век. -2000, № 1, с. 26-36.

D.Held, A. McGrew, D.Goldblatt və J.Perratonun həmmüəllifliyi ilə nəşr edilən "Qlobal çevrilmələr: siyasət, iqtisadiyyat və mədəniyyət" kitabinda müəlliflər mövcud modellərin yerini əvəz edən qloballaşmanın yeni modelini iddia edir, sonra bu modeldən qloballaşma proseslərində siyasi təşkilatlara münasibətdə müxtəlif tarixi dövrlərdə keçilən yol, hərbi qloballaşma, maliyyə ticarət, korporativ məhsuldarlıq, miqrasiya, mədəniyyət və ətraf mühiti qiymətləndirmək üçün istifadə edilir. Bu mövzular qloballaşmanın müasir xarakterini və əvvəlki dövrlərdə olan təzadlarını əhatə edir[4]. J.F.Bayart qlobal mövzuya qloballaşmanın siyasi tənqidi nöqteyi-nəzərindən yanaşır, neoliberalların və anti-qloballaşma hərəkatı tərəfdarlarının şərhlərini şübhə altına salan qloballaşmanın prinsipial yanaşmasını təklif edir. O iddia edir ki, milli dövlət qloballaşma prosesinin bir məhsuldur, qloballaşma milli dövlətləri dağıtmadan onlarla qismən uyğun olan şəbəkələr və transmilli həmrəylik yaradır[5].

Qloballaşmanın təzahürü və onun müasir beynəlxalq münasibətlərə təsirinə A.Q.Zadoxin, V.B.Kuvaldin və başqalarının elmi işlərində rast gəlinir[6]. Bu işlərdə qlobal miqyasda dövlət və dünya regionlarının edilir. Bu tədqiqatlarda qloballaşma proseslərinin dərkinin əsasları qoyulmuş, müəlliflər qloballaşmanı müasir dövrü bir çox xüsusiyyətlərinə görə müəyyənləşdirən proses kimi nəzərdən keçirirlər.

XX əsrin 90-cı illərində cəmiyyətin demokratratikləşməsi prosesində tarixə yeni baxış obyektiv gerçəkliyin nəzərə alınması meyarı ilə öyrənilməyə başlandı. Azərbaycan siyasi sisteminin transformasiyası qlobal dəyişikliklərin tamhüquqlu iştirakçısı olmağa qadir effektiv

---

[4] Алмонд, Г., Верба С. Гражданская культура и стабильность демократии // Полис. -1992, № 4, с. 122-134; David Held, Anthony McGrew, David Goldblatt, Jonathan Perraton. Global changes: Politics, Economy and Culture. StanfordUniversity Press,-1999.- 540 p.; Arthur F. Bentley.In The Process of Government:A Study of Social Pressure,1908 https://www.britannica.com/biography/Arthur-F-Bentley#ref164555; Мамут Л.С. Политический процесс // Советское государ-ство и право. 1982, № 3, с. 43-47.; 252.
Weber, M.A., Lum, T., Blackwood,M.A., Mix, D.E., & Husted, T.F. Global democracy and human rights impacts ofcovid-19: in brief. Congressional Research Service Report, June 26, 2020, pp. 1-15

[5] Jean-Francois Bayart. Global Subjects: A Political Critique of Globalization. Publishing: Polity, -2007.- pp. 392;

[6] Задохин А.Г., Митрофанова А.В. Глобализация и глобальные проблемы человечества. М.: Московский философский фонд, -2003.- 51 с.;Кувалдин В. Противоречивый феномен // Соврем. Европа. 2002, № 4, с. 28-38.

dövlətin formalaşmasının nəzəri və praktik məsələlərinə xüsusi diqqətlə yanaşmağı tələb edirdi. A.Şükürovun monoqrafiyala- rında qloballaşma, perspektivləri, dünya klassik modelləri, elm, informasiya inqilabı, internet, əhali artımı, mədəniyyət, mənəviyyat və qloballaşma, ətraf mühütün böhranı məsələləri nəzərdən keçirilir. Qloballaşma mövzusu bir sıra dissertasiyaların da tədqiqat predmetinə çevrilmişdir. Milli fəlsəfə elmində son illərdə mövzu ətrafında H.Mustafayevanın "Qloballaşma: beynəlxalq münasibətlər sistemində ekoloji problemlərin yeri və rolu", G.Süleymanovun "Qloballaşma və dinlərin dialoqu problemi: sosial-fəlsəfi təhlil", F.Kərimovanın "Qloballaşma prosesi və müasir sivilizasiya ziddiyyətləri: nəzəri-fəlsəfi təhlil"[7] dissertasiyaları müdafiə edilmişdir.

Bütövlükdə, mövzunun müxtəlif aspektləri üzrə müəyyən sayda araşdırmaların olmasına baxmayaraq, bu gün qloballaşmanın inkişaf spesifikasını və modernləşməni, xüsusilə pandemiyadan əvvəl, pandemiya dönəmində və sonra əks etdirən tədqiqat işlərinin çatışmadığı açıq-aşkardır. Yəni, qloballaşmanın müasir siyasi proseslərə təsiri problem siyasi elm sahəsi mütəxəssislərinin təhlil predmeti olmamışdır. Bu isə mövzuya ciddi elmi yanaşma tələb edir və gələcəkdə kompleks şəkildə tədqiqata ehtiyac olduğunu göstərir. Bu zərurət dissertasiya mövzusunun seçilməsini şərtləndirməklə tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələrini müəyyənləşdirib.

**Tədqiqatın obyektini** sosial-siyasi hadisə kimi qloballaşmadır.

**Tədqiqatın predmeti** qismində qloballaşmanın müasir siyasi proseslərə təsir xarakteri çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin **məqsədi** qloballaşmanın müasir siyasi proseslərə təsir xüsusiyyətlərini və əsas istiqamətlərini müəyyən etməkdən ibarətdir.

Tədqiqat məqsədinə nail olmaq üçün aşağıdakı əsasvəzifələrin yerinə yetirilməsi təmin edilmişdir**:**

-Qloballaşmanın mahiyyətinin sosiosiyasi fenomen kimi

[7] Mustafayeva, H. Qloballaşma: beynəlxalq münasibətlər sistemində ekoloji problemlərin yeri və rolu: fəlsəfə üzrə fəlsəfə dok. ............. dis. Avtoreferatı. Bakı: Bakı Dövlət Universiteti.- 2010.- 26 s.; Süleymanov, G. Q. Qloballaşma və dinlərin dialoqu problemi: sosial-fəlsəfi təhlil: fəlsəfə üzrə fəlsəfə dok. dis. avtoreferatı; Bakı.- 2010.- 26 s.; Kərimova F.M. Qloballaşma prosesi və müasir sivilizasiyaziddiyyətləri: nəzəri-fəlsəfi təhlil: fəlsəfə üzrə fəlsəfə dok. ....................... dis. avtoreferatı; Bakı, Bakı Dövlət Universiteti.- 2010.- 29 s.

öyrənilməsi;

-Qərb və milli siyasi elm çərcivəsində qloballaşmanın əsas nəzəri-metodoloji yanaşmalarının sistemləşdirilməsi və onların fərqinin və səmərəliliyinin göstərilməsi;

-Qloballaşmanın müasir şəraitdə cəmiyyətin inkişafına təsir xüsusiyyətləri, qloballaşma prosesinin səciyyəvi xüsusiyyətləri və əsas nəticələrinin təyin edilməsi;

-Qloballaşma şəraitində müasir siyasi proseslərin və onların transformasiyası anlayışının, dinamikasının, tipologiyasının təhlili;

-Siyasi qloballaşma şəraitində siyasi təsisatların inkişaf xüsusiyyətlərinin və təmayüllərinin təyin edilməsi;

-Dünyanın siyasi qloballaşması şəraitində regional inkişaf srategiyasının xüsusiyyətlərinin öyrənilməsi;

-Qlobal siyasi sistemdə konstitusionalizm və dövlət;

- Qloballaşmanın milli dövlətlərin sosial siyasətlərinə təsiri;

-İnteqrasiya prosesləri və qlobal siyasi sistemin potensial güc mərkəzlərinin formalaşması;

-XX əsrin sonu -XXI əsrin əvvəllərində Azərbaycan Respublikasında qloballaşmanın təsiri ilə siyasi proseslərin transformasiyası və inkişaf xüsusiyyətləri;

- Qloballaşma və Azərbaycan Respublikasında siyasi strukturların dəyişməsi prosesi;

- Qloballaşma şəraitində dünya dövlətlərinin müasır siyasi proseslərdə iştirakı;

-COVİD-19 pandemiyasının qloballaşmaya və və Azərbaycanda müasir siyasi proseslərə təsiri kimi vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir.

Tədqiqatın elmi əhəmiyyətini müəyyən edən və müdafiəyə təqdim **edilən və müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

1. Qloballaşma dünya siyasi prosesin mühüm struktur komponentidir və müasir şəraitdə onun inkişafının gedişatını, istiqamətini və xüsusiyyətlərini, xüsusən də qlobal səviyyədə idarə olunan siyasi prosesin formalaşmasını böyük ölçüdə müəyyən edir.
2. Dünya siyasi prosesinin genezisinin ən mühüm və əsas perspektivi qlobal demokratiyanın formalaşması və hərtərəfli möhkəmləndirilməsidir.
3. Dünya iqtisadi və dünya sosial siyasəti qloballaşmanın özünü göstərən

və dünya siyasi prosesi çərçivəsində fəaliyyət göstərən xüsusi, spesifik formalarıdır. Müasir formada dünya iqtisadi və dünya sosial siyasəti, ilk növbədə, həm qlobal miqyasda, həm də ayrı-ayrı regionlar, milli dövlətlər, müxtəlif növ icmalar səviyyəsində iqtisadi və sosial bərabərsizliyin güclənməsinə kömək edir.

4. Qloballaşma soyuq müharibə sonrası mədəni, iqtisadi və siyasi gerçəkliklərin real və obyektiv dönməz prosesidir, bu proses başa çatmamışdır, inkişafının başlanğıc mərhələsindədir, mürəkkəb və çoxşaxəli xarakterə malikdir və kompleks yanaşma tələb edir.
5. Qloballaşmanı dövlətlər arasındakı maneələri azaldan, yeni qanunlar və dövlətlərarası qarşılıqlı fəaliyyət xüsusiyyətləri doğuran siyasi, iqtisadi, sosial və texnoloji dəyişikliklər zənciri kimi müəyyənləşdirmək olar.
6. Ölkələrin praktik olaraq qloballaşma prosesinə cəlb edilməsini, beynəlxalq proseslərin aktorlarının sayının artması və təsirinin yerdəyişilməsini qloballaşmanın əsas əlamətlərinə aid etmək olar.
7. Qloballaşma şəraitində müasir dünyada siyasi proseslər yerli səviy yədən qlobal səviyyəyədək inkişaf edir. Siyasi qloballaşma proses kimi ayrılıqda götürülmüş hər bir dövlətdə, o cümlədən Azərbaycan Respublikasında siyasi proseslərin fəaliyyətinə və transformasiyasına təsiri kifayət qədər aydın müşahidə edilir.

**Tədqiqat metodları**. Dissertasiya işi çərçivəsində elmi təhlilin əsasını dialektikanın formaloji metodları, müasir sosioloji və siyasi konsepsiya və nəzəriyyələr, qloballaşma və siyasi prosesin öyrənilməsinə istiqamətlənən əsas yanaşmalar təşkil edir.

Qloballaşma əsrlərin qovuşuğunda siyasi institut və proseslərin inkişafını şərtləndirən, daxili və xarici əlaqələrin məcmusu olan mürəkkəb təzahür kimi nəzərdən keçirilir. Siyasi sahənin tədqiq edilməsi üçün siyasi təsisat və proseslərin transformasiyasını izləməyə imkan verən prosessual-dinamik yanaşmadan istifadə olunmuşdur. Qloballaşmanın müasir siyasi proseslərin strukturuna təsiri aspektlərinə baxış isə ictimai inkişafın determinə edilən prinsipləri və proqnoz metodu əsasında həyata keçirilmişdir. Tədqiqatın gedişində ümumi elmi: formal məntiqi, müqayisəli və ümumi elmi, konkret elmi, fənlərarası elmi metodları əhatə edən metodlardan istifadə edilmişdir və bu yanaşmaların əsasında müvafiq elmi nəticələr əldə edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi** ilk növbədə problemin qoyuluşundan,

qloballaşmanın mahiyyətininin kompleks siyasi tədqiqinin reallaşmasından, onun əldə edilən nəticələrə, siyasi inkişafa və siyasi proseslərin strukturuna təsirindən ibarətdir. Qloballaşma müasir siyasi prosesə və onun digər komponentlərinə təsir göstərən mühüm struktur elementidir və müasir siyasi proseslərin strukturunu dəyişdirdi. Qloballaşmanın müasir mərhələsində COVİD-19 pandemiyası avtoritar rejimlərin epidemiya ilə mübarizədə demokratiyalardan daha təsirli olduğu arqumentini gücləndirə bildi, epidemiyanın həm sağlamlığa, həm də sosial strukturların mövcud idarəetmə anlayışına potensial təsirini ortaya qoydu. Pandemiya Kibernetik İnqilabın sürətlənməsinə və e-hökumətin elektron dövlətə çevrilməsinə təsir göstərdi. Belə şərh qloballaşmanın keyfiyyətcə yeni yanaşma əsasında hərtərəfli kompleks təhlilini zəruri edir. Tədqiqatın elmi yeniliyinə aşağıdakıları aid etmək olar:

-Dissertasiyada ilk dəfə olaraq siyasi prosesin öyrənilməsinə nəzəri və metodoloji yanaşmalar müəyyən edilmiş və ümumiləşdirilmiş, qloballaşmanın əsas nəzəri-metodoloji yanaşmaları sistemləşdirilmiş və onların fərqi və səmərəliliyi göstərilmişdir;

-dissertasiya işində siyasi proses problemlərində aparıcı tədqiqatçılar tərəfindən verilən müxtəlif yanaşmaların nəticələrinin uzlaşdırılmasına, müasir siyasi prosesin strukturunda qloballaşmanın rolu və təsiri dinamikasının müəyyənləşdirilməsinə cəhd edilmişdir;

-qloballaşmanın müasir şəraitdə cəmiyyətin inkişafına təsir xüsusiyyətləri, qloballaşma prosesinin səciyyəvi xüsusiyyətləri və əsas nəticələri açılıb göstərilmişdir;

-dissertasiyada müasir mərhələdə siyasi qloballaşma prosesinin siyasi təsisat və proseslərin inkişafına təsirinin əsas istiqamətləri müəyyənləşdirilmişdir;

-müasir dünyanın qloballaşmasının mürəkkəb siyasi-sosial prosesinin təhlili verilmişdir;

-siyasi qloballaşma şəraitində regional inkişaf srategiyasının xüsusiyyətləri öyrənilmişdir;

-Azərbaycanda siyasi təsisat və proseslərin hazırkı vəziyyəti və inkişaf xüsusiyyətləri aşkar edilmişdir;

-dünyanın siyasi qloballaşması şəraitində siyasi təsisat və proseslərinin transformasiyasının mühüm təmayülləri təhlil edilmişdir.

-Qloballaşma və siyasi strukturların dəyişməsi prosesi araşdırılmışdır;

-COVİD-19 pandemiyasının qloballaşmaya və müasir siyasi proseslərin strukturuna təsiri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** praktik tövsiyələrdən, elmi təhlilin yekun və nəticələrindən analitik mərkəzlərin elmi-praktik fəaliyyətində, elmi-tədqiqat işlərində istifadəsindən ibarətdir. Tədqiqat materiallarından siyasət nəzəriyyə, qlobalistika və digər fənlər üzrə tədris kurslarının və proqramlarının hazırlanmasında və tədrisində istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu.

**İşin aprobasiyası**. Dissertasiya tədqiqatının əsas nəzəri müddəaları və praktik nəticələri Prezident yanında Dövlət İdarəçilik Akademiyasında müzakirə edilmiş və bəyənilmişdir. Tədqiqatın nəticələri müəllifin məqalələrində də öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Tədqiqat işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Giriş -18054, I Fəsil-70485, II Fəsil – 76545, III Fəsil – 82451, IV Fəsil-53085, Nəticə – 11699, ümumi həcm – 288004 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri haqqında məlumat verilir, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri və praktiki əhəmiyyəti göstərilir

Dissertasiyanın **"Müasir siyasi proseslər kontekstində qloballaşmanın tədqiqinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəsli iki yarımfəsildən ibarətdir. "**Qloballaşma problemi müasir siyasi tədqiqatlarda: nəzəri konseptual yanaşmalar"** adlı birinci yarımfəsildə qloballaşmanın dörd tarixi mərhələsinin müəyyən edilməsinə imkan verən: arxaik və proto-modern qloballaşma, erkən müasir qloballaşma, müasir qloballaşma, ən yeni qloballaşma dövrü göstərilir. Anlayışın "Qlobal kənd" (1960) termini ilə ədəbiyyata daxil olduğu, müasir mənada "Resursların istifadəsi və bölüşdürülməsi üzrə insan davranışlarının müəyyənləşdirilməsi üçün proqnozlar" (1968) əsərilə

populyarlıq qazandığı, bildirilir[8]. İnsan təfəkkürünün qlobal ölçülməsinin formalaşması nəzəriyyəsini müəllifi R.Robertsonun qloballaşma ilə bağlı əsas tədqiqatları təhlil edilir[9], qloballaşmanın ilk tərifinin "dünyanın daralması və bütövlükdə dünya şüurunun intensivləşməsi"[10] (1992) olduğu göstərilir. Neomarksist, realizm və institusionalizm siyasi fəlsəfi fikir nümayəndələrinin qloballaşmanın milli dövlətə təsiri araşdırılır.

"Qloballaşma" termininin fərqli şərhləri fenomenin mahiyyətinin müəyyənləşdirilməsi problemini ortaya qoyur: iqtisadi proses kimi; sosial-mədəni və sosial-sivilizasiya prosesi kimi; siyasi proses kimi. Qloballaşmanın bu üç müxtəlif təfsiri onun inkişafının müəyyən mərhələlərini göstərir: baxmayaraq ki, hər üç cəhət onun bütün mərhələlərində bu və ya digər şəkildə müşahidə oluna bilər, lakin hər bir dövrdə aspektlərdən biri nisbətən dominant rol oynaya bilər. Qloballaşma ilə milli dövlətin bir sıra mühüm funksiyaları-səlahiyyətləri, strukturu, suverenliyi və legitimliyinin zəiflədiyi müşahidə olunurdu. COVİD-19 pandemiyası isə fövqaladə hallarda dövlətin rolunun güc- lənməsinin zəruri olduğunu isbatladı.

Qloballaşma praktiki modernizasiya prosesinə bərabər olan prosesdir. Şərqi Asiya ölkələri sübut ediblər ki, modernizasiya imkanları vesternizasiyaya nisbətən daha güclüdür, sənayeləşmə vesternizasiyasız da mümkündür. Siyasi qloballaşmanın dövlətlərarası vurğulanması onu qeyri-dövlət və bazar əsaslı aktorların rolunu önə çəkən iqtisadi və mədəni qloballaşmanın rəqib konsepsiyalarından fərqləndirir. Beynəlmiləlçiliyə, dünya hökuməti formasına idealist bağlılığı əks etdirdiyinə görə, siyasi qloballaşma iqtisadi və mədəni qloballaşmadan nəzərəçarpacaq dərəcədə geri qalır.

Belə nəticəyə gəlinir ki, qloballaşma, hələ də tam aydın olmayan yollarla iqtisadi, sosial, siyasi və mədəni həyatın parametrlərini dəyişən sosial transformasiya prosesidir, qloballaşmanı konseptual cəhətdən

---

[8] McLuhan, Eric. The source of the term 'global village'. 1996. McLuhan Studies(issue 2). Retrieved 2008-12-30; Seymen, O., Bolat, T. Küreselleşme Ve Çok Uluslu İşletmecilik, Nobel Yayın Dağıtım, Ankara,- 2005, 512 s.

[9] Robertson, R. Globalization Theory and Civilization Analysis. //Comparative Civilizations Review, Vol.17, 1987, p.1-11; Robertson R. Globalization: Social Theory and Global Culture. Publisher: SAGE Publications Ltd, 1992, 224 p.

[10]Anthony R. Welch The Professoriate: Profile of a Profession. //Higher Education Dynamics. Published by Springer, 2005, Volume 7, p. 21-35.

müəyyənləşdirmək və empirik şəkildə göstərmək çətindir. Qloballaşmanın müxtəlif proseslərin kompleks toplusu kimi şərhi onun həqiqətən də çox mürəkkəb mahiyyətini təyin etməyə imkan vermir. Qloballaşma mürəkkəb qarşılıqlı əlaqə şəbəkəsinin yaranmasıdır ki, insan həyatı getdikcə ondan uzaqda qəbul edilən qərarlar və hərəkətlərlə formalaşır. Qloballaşma insan həyatının kəmiyyət və keyfiyyətcə təşkilinin makrotransformasiyasıdır və onun daxilində qlobal proseslər və institutların yerli təsirləri ola bilər və artan qarşılıqlı əlaqə bir yaşayış məntəqəsinin inkişaf xüsusiyyətlərini digər yerlərdə həyat tərzinə və inkişaf trayektoriyalarına təsir göstərməyə aparır.

İkinci yarımfəsildə **"Qloballaşan dünyada müasir siyasi proseslərin dinamikası və tipologiyası"** adlı qloballaşma şəraitində siyasi proses və təsisatlar problemi, onların inkişaf xüsusiyyətləri, eləcə də dünyanın siyasi qloballaşmasının təsiri altında müasir dünyada siyasi proses və təsisatların transformasiyası araşdırılır. Göstərilir ki, "siyasi proses" kateqoriyası siyasətin siyasi sistemin hərəkətini, dinamikasını, təkamülünü, zaman və məkanda onun hallarının dəyişməsini əks etdirir. Siyasi prosesin məz munu və ona təsir edən amillər şərh edilir. Belə qənaətə gəlinir ki, "siyasi proses" termini, həm bu və ya digər səviyyədə müşahidə olunan hadisələr kompleksi, həm də olduqca fərqli elementləri olan kompleks quruluşa malik bir kateqoriya kimi başa düşülə bilər.

Yarımfəsildə siyasi *prosesin strukturuna daxil olan* komponentlər araşdırılır. Siyasi aktorların fəaliyyət göstəriciləri təhlil edilir. Siyasi prosesin öyrənilməsində institusional, bixevioral, struktur-funksional, rasional seçim nəzəriyyəsi, diskurs, sistemli təhlil metodları araşdırılır[11]. Siyasi proseslərdə siyasi institutlar və siyasi proseslərin qarşılıqlı əlaqəsi təhlil edilir, Q.Almond və C.Pauellanın siyasi institut və siyasi proseslərin funksiyonallaşmış modelii çərçivəsində siyasi prosesin inkişafında baş verən dəqiq və tam mərhələlər açılır. Siyasi prosesin təsnifatında L.Payın qərb və qeyri-qərb siyasi prosesinin təhlilində göstərilir ki, qeyri-qərb siyasi prosesləri sferasında ictimai və şəxsi qarşılıqlı

---

[11] Downs A. An Economic Theory of Democracy. New York: Harper & Brothers, -1957. 310 p.; Olson, M. Rapid growth as a destabilizing force. //Journal of Economic History, -1963, 23(4), 529–552.; William H. Riker. The Theory of Political Coalitions. New Haven: Yale University Press. -1962. 292 p.; Arthur F. Bentley.In The Process of Government: A Study of Social Pressure,1908; Дегтярев А.А. Основы политической теории. М., -1998, -623 с.

münasibətlərin bölgüsü qeyri dəqiqdir[12]. Siyasi mübarizə siyasi kursda yox, nüfuz məsələlərində cəmlənir. Siyasi partiyalar adətən tez-tez müəyyən edilmiş nümayəndələrlə çıxış edir, onlar dar sosial qrupların və ya nüfuz edici liderin maraqlarını ifadə edir. L.Pay faktiki olaraq, Qərb siyasi proseslərinə, Qərb demokratiyası formalaşmış Anglo-Sakson ölkələri mədəniyyəti əsasında baxır və bu yanaşma ayrı-ayrı ölkələrdə siyasi proseslərin öyrənilməsi üçün çox mücərrəddir. Burada dünyanın qloballaşması çərçivəsində Şərq ölkələrində siyasi proseslər və təşkilatların Qərb modellərinin təbliği nəzərə alınmır. Yayılma nəticəsində qeyri-Qərb cəmiyyətlərdə siyasi proseslərin və institutların transformasiyası baş verir, onlar digər xüsusiyyətləri əldə edir, lakin bununla ilkin dövlətlərin xüsusi siyasi mədəniyyəti ilə əlaqədar bəzi parametrləri hələ də saxlayır.

Siyasi proseslər müxtəlif təsnifatlar görə təhlil edilir. Müasir Azərbaycanda siyasi proses qeyri-qərb tipli proseslərə, digər təsnifatda isə – xarizmatik, eləcə də şaquli təşkil olunmuş prosesə daha çox uyğundur. Bu da həmin siyasi prosesi modernləşməyə gəlib çatan cəmiyyətin siyasi prosesi kimi səciyyələndirir.

*Yarımfəsildə yekun olaraq aşağıdakı nəticələrə gəlinir:*

Qloballaşma prosesi yeni inkişaf mərhələsindədir. Qloballaşmanın insan cəmiyyətinə təsirinin bütün nəticələri aşkarlanmadığından onun inkişafının konskruktiv və ya dağıdıcı olması haqqında birmənalı danışmaq olmaz. Siyasətin dövlətdən kənarda inkişafı siyasi qloballaşma meylində də özünü büruzə verir və onun təsiri mürəkkəb və müəyyən mənada ziddiyyətlidir. BMT, Aİ və ÜTT kimi beynəlxalq qurumlar dövlətin özünü idarə edən siyasi vahid kimi fəaliyyət göstərmək imkanlarını sarsıdır. Siyasi qloballaşma suverenliyin "birləşdirilməsi" ilə dövlətə həm imkanlar açır, həm də onları azaldır.

Neoliberalların və neokonservatorların mövqelərinə görə, müasir siyasi partiyalar cəmiyyətin müəyyən təbəqəsinə daha az istiqamətlənirlər. Siyasi sosializasiya, qrup maraqlarının ifadəçisi kimi finksiyaların itirilməsinə, namizədlərin irəli sürülməsi üzərində nəzarətin qismən aradan götürülməsinə baxmayaraq, siyasi partiyalar aparıcı siyasi institutelardan biri olaraq qalırlar. Onlar seçki prosesinin

---

[12] Пай Л. Незападный политический процесс // Политическая наука: Сб. научн. трудов. Вып 2. Политическое развитие и модернизация: современные исследования. М., 2003. с. 66-86.

hissəsidirlər. Yaxın gələcəkdə qloballaşma prosesi siyasi institutların inkişafında göstərilən meyillərin birləşməsini xeyli mürəkkəbləşdirəcək.

XX əsrin sonu XXI əsrin əvvəllərində dünyada siyasi institut və proseslərin transformasiyasının təhlil olunması nəticəsində, köhnə siyasi strukturun öz mövcudluğunu dayandırdığı, yeni strukturun isə hələ tam formalaşmadığı şəraitdə qeyi-qərb ölkələrində institusionallaş ma prosesi ziddiyyətli xarakterli və münaqişəli xüsusiyyətlə səciyyələnmişdir. Dövlət-cəmiyyət, biznes-hakimiyyət münasibətlərinin izamlanmasının qeyri-hüquqi mexanizmləri fəal şəkildə formalaşmış, siyasi proses və institusional struktur böhran xarakteri daşımışdır.

**“Qloballaşma və sosial-siyasi transformasiyalar** adlı II fəslin birinci yarımfəslində **“Qlobal siyasi sistemdə konstitusionalizm və dövlət”** münasibətləri araşdırılır. Dövlətin idarəetmə sistemi, vergitutma və ərazi təşkili kimi prinsipləri inkişaf etmiş vəziyyətdən yetkin vəziyyətə keçdikdə dövlət idarəçiliyində konstitusiya quruluşunun yaradılması, ali hakimiyyətin legitimləşdirilməsi və ötürülməsi, demokratikləşmə əsas dəyişikliklərdən oldu. Hakimiyyətin yerli hakimiyyət orqanlarının ardıcıl sistem formalaşdırması, qanunun artan əhəmiyyəti, məhkəmə sistemində islahatlar və hüquq təhsili sistemini inkişaf etməsi kimi dəyişikliklər vətəndaş cəmiyyətinin formalaşmasının əsasını qoydu. Hökumət vətəndaşlar qarşısında daha məsuliyyətli olmağa başladı, onlar hökuməti hüquqi cəhətdən tənqid etmək imkanı əldə etdi. Qarşılıqlı əlaqənin sürəti dövlətlərin siyasi, iqtisadi, hərbi, mədəni və sosial xüsusiyyətlərini dəyişdi. XX əsrdə qloballaşma yarımperiferik və periferik ölkələrə modernləşmə gətirdi, bu mexanizmlər tədricən qlobal miqyas aldı. Yarımfəsildə qloballaşmada demokratikləşmənin əsas aspektlərindən hesab edilən konstitusionalizmin yayılmasının üç dalğası, qlobal tarixdə ilk konstitusiya (Polşa 1791), eləcə də konstitusionalizmin yayılmasında həlledici rol oynayan Fransa İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi təhlil olunur. Göstərilir ki, siyasi qloballaşma siyasi müasirliyin qlobal yayılması ilə formalaşdı. Bu müasirliyin konstitusionalizmi, ümumbəşəri hüquqlar, demokratikləşmə və digər mühüm prosesləri və institutları, müasir Avropa təhsilinə malik yarı periferik elitaların köməyi ilə qlobal xarakter aldı. Qloballaşma dövlətlərin demokratiya institutlarının və cəmiyyətin demokratik idarəedilməsinin hərtərəfli inkişafı üçün optimal şəraiti təmin etmək baxımından, siyasi

funksiyaların məzmununa da müəyyən dəyişikliklər etdi. Qlobal siyasi müasirliyin digər hadisəsi əvvəlki partiyalardan əhəmiyyətli dərəcədə fərqlənən müasir siyasi partiyaların meydana çıxması oldu. Siyasi partiyaların inkişafında ilkin şərtlər, əsas funksiyalar araşdırılır.

Kişilərin və qadınların seçki hüququ uğrunda mübarizəsi, XIX əsrin daha bir mühüm sosial transformasiyası olan qlobal "qulların azad edilməsi" və Qul Ticarətinin Ləğv edilməsi Aktı, başqa sözlə şəxsi asılılığın sərt formalarının ləğvi araşdırılır və bu proses XIX əsrdə baş verən ən mühüm qlobal proseslərdən hesab edilir.

Qloballaşmada dövlət funksiyalarının gələcək rejimlərdə də qala bilməsinin aydınlaşması siyasi aksiyaların təhlilini tələb edir. Dövlətin siyasi funksiyalarının reallaşması planında dövlət suverenliyi problemi mühümdür. Beynəlxalq münasibətlər sferasında güclü aktorları tanımaq dövlət suverenliyi şərtlərindəndir. Suverenlik dövləti təsir sahəsinə aid edən əsas aktorların siyasi maraqlarından asılıdır. Suverenlik anlayışının mənasını müəyyənləşdirən ümumi qəbuledilmiş şərti bir model yoxdur. Qloballaşma dövlət suverenliyilə bağlı ənənəvi anlayışa meydan oxudu. Ticarət, kommunikaşiya, maliyyə vasitəsilə ölkələr bir-birinə daha çox bağlandıqca, siyasi qərarlar getdikcə qlobal qüvvələr və institutların təsiri altına düşür. Beynəlxalq müqavilələr, sazişlər və təşkilatlar hökumətlərin qərar qəbuletmə prosesini formalaşdırmaqla daxili siyasətə təsir göstərir.

Dövlətin heç bir qlobal marağı onun öz ərazisində dövlət hakimiyyətinin aliliyinin inkar edilməsinə gətirə bilməz. Qloballaşma dövlətlərin təhlükəsizlik siyasətinin mahiyyətini transformasiya etdirir. İqtisadiyyat, maliyyə, yoxsulluq, ekologiya, etnik konfliktlərlə bağlı olan "yumşaq təhlükəsizliyin" rolu artır. "Sərt təhlükəsizlik" öz əhə miyyətini saxlayır və daha çox dövlətlərin hərbi qarşıdurmasından yüksək texnologiylar sahəsində yarışmasına keçir.

Qloballaşmada dövlət və iri transmilli biznes maraqları daxilində artan sıçrayış fenomeni müşahidə edilir, onların arasında çoxalan özgəninkiləşdirilmə obyektiv xarakter daşıyır.

Qloballaşmada milli dövlətin iqtisadi yükü artır. Realistlər iddia edirlər ki, milli dövlət qlobal münasibətlər sisteminin başlıca iştirakçı olaraq qalır və beynəlxalq institutlar onların iradəsini ifadə edir. İnstitusionalistlər isə bəyan edirlər ki, beynəlxalq təşkilatlar və rejimlər çağdaş dövlətlərin öz funksiyalarını həyata keçirməsində onların

müstəqilliklərini məhdudlaşdırır. Geniş sistemli funksional təhlil realistlərin volyuntarist və institusionalistlərin isə prosessual yanaşmalarında ifratçılığın aradan qaldırılmasına xidmət edir.

Dövlətin qlobal miqyas daşıyan funksiyalarına şəxsiyyətin hüquq və azadlıqlarının qorunması və müdafiəsi funksiyası da aiddir. İnsan hüquqlarının pozulması ilə müşayiət olunan və beynəlxalq müdaxilə tələb edən münaqişələrin nizamlanmasında da beynəlxalq birliyin iştirakı zəruridir. Odur ki, siyasi qloballaşmada beynəlxalq birliklərin fəaliyyətləri dünyada baş verən siyasi proseslərin tənzimlənməsinə yönəldilməli və beynəlxalq münasibətlərin dünyanın bütün ölkələrində insan hüquqları qorunduğu və dünya dövlətlərinin hamısının mənafeyinə xidmət edən bir modelinə əsaslanmalıdır.

İkinci yarımfəsildə **"Qloballaşmanın milli dövlətlərin sosial siyasətlərinə təsiri"** təhlil olunur. Göstərilir ki, qloballaşmanın təsirilə sosial funksiya daha çox transformasiyaya məruz qalır. Qlobal dövlətin ümumsosial mənşəyi–sosial müdafiə sisteminin və sosial kapitalın gücləndirilməsi, cəmiyyətdə sosial ziddiyyətlərin həllində sivil vasitələrdən istifadə ilə onların yumşaldılması, dövlət hesabına sosial rifahın müəyyən həcminin təmin olunması vasitəsilə insan həyatı üçün layiqli şəraitə nail olunmasından ibarət olur.

Müasir sosial dövlətin prototipi Avropada XIX əsrin sonu XX əsrin əvvəllərində qloballaşmaın müasir dövrünə təsadüf edir. Bəzi Qərbi Avropa ölkələri müasir pensiya sisteminin ilk prototiplərini hazırlayıb bütün sosial qruplara milli səviyyədə sosial dəstək verməyə başladılar. XX əsrdə qloballaşma bu dövlətlərin dayaq institutlarını yarı periferiyaya və periferiyaya apararaq qlobal əhəmiyyətli sosial-siyasi fenomenə çevirdi. Yarımfəsildə müasir sosial təminatın tarixində Bö yük Britaniyada pensiya qanunvericiliyi təhlili edilir, İngiltərə rifah ideologiyalarının və sistemlərinin müstəmləkə ölkələrinə "ixracı", onların sosial və siyasi strukturlarına təsiri və yerli elita ilə birlikdə iqtisadi inkişaf maraqlarını Britaniya maraqlarına uyğunlaşması araşdırılır. Göstərilir ki, sosial sığortanın müasir konsepsiyası müasir Almaniyada özünün ən yüksək inkişaf səviyyəsinə çatıb. Alman təcrübəsi bir çox Avropa ölkələri tərəfindən ən azı milli sosial təminat sistemlərinin təşkili konsepsiyası baxımından qəbul edildi. Sosial müdafiəyə Qərbi Avropa sosial demokratların yanaşmaları XX əsrdə dünyada milli sosial təminat

sistemlərinin inkişafına təsir göstərən BƏT vasitəsilə ötürüldü[13]. Bununla da, siyasi transformasiyalar dövrünü əhatə edən XIX əsrin sonu və XX əsrin əvvəlləri bütün sosial qruplara milli səviyyədə sosial dəstək verən yeni tip dövlətə köklü keçidi qeyd etdi, sosial dövlətlər yarandı. Qloballaşma bu proseslərlə sıx bağlı idi, o, yeni siyasi hadisələri və institutları Dünya Sisteminin əsas ölkələrinin hüdudlarından kənara, yarı periferiya və periferiyaya daşıdı.

Qloballaşmanın sosial siyasətə gözlənilən təsirlərinə: sosial və əmək standartlarının aşağı salınması; dövlət xidmətlərinin özəlləşdirilməsi; qlobal sağlamlıq və rifah bazarlarının yaradılması; könüllü və qeyri-rəsmi təminatdan asılılığın artmasını göstərə bilərik. Qloballaşma sosial siyasətin aid olduğu məsələləri dünya-regional və qlobal dövlətüstü institutlar, agentliklər və forumlar səviyyəsinə qaldırır. Sosial siyasət islahatı ilə maraqlanan ölkələr daxilində və arasında "yeni" siyasi koalisiyalar yaradır. Qlobal miqyasda dövlətin rifahının azalması neoliberal siyasətlə əlaqələndirilir. İqtisadi artımda insan kapitalının inkişafını stimullaşdırmaq və iqtisadiyyatın fəaliyyətini dayandıran bərabərsizlikləri aradan qaldırmaq üçün dövlətin fəaliyyəti son tədbirə çevrilir. Bu zaman, qloballaşmanın sosial "siyasəti sağa aparan qlobal kapitalizm mərkəzinin sağ mövqeyinə" yaxınlaşmasıyla iqtisadi siyasətdə neoliberalizmin başlanğıcını qoydu[14].

XX əsrin ortalarında Olson və Hantington adambaşına düşən gəlir səviyyəsi ilə sosial-siyasi sabitliyin pozulması riskləri arasında mənfi korrelyasiyadan daha çox tərs U-şəkilli əlaqənin olduğunu təklif edtilər: sabitliyin pozulmasının ən yüksək riski yüksək və aşağı gəlirli ölkələr üçün deyil, orta gəlirli dövlətlər üçün müşahidə olunur. Qloballaşmanın təsiri altında əmək bazarının və məşğulluğun təşkilində: sabit məşğulluq təminatının olmaması; müvəqqəti məşğulluğun artması və onun texnoloji dəyişikliklərlə bağlı yeni formalarının yaranmasını, məsələn, əmək fəaliyyətinin virtual dünyaya köçürülməsini fərqləndirmək olur. Bu daha yüksək dərəcəli az sayda işçinin olmasını və həmkarlar ittifaqlarının təsirinin azaldılmasını tələb edir. Yaşlılara dövlət xidmətinin keyfiyyət və effektivliyinin artırılması sosial siyasətin

---

[13] Kay, S. 'Recent changes in Latin American welfare states: is there socialdumping?'// Journal of European Social Policy. 2000.-10(2): 185–203.
[14] Mishra, R., Globalization and the Welfare State. Cheltenham: Edward Elgar. -1999. 83 p.

effektiv təşkilində əsas amillərdəndir. İdarəetmə, və ya tənzimləmə rolunda çıxış edən dövlətin əsas hədəfi sosial-iqtisadi inkişafa nail olmaqdır. Vətəndaşların qloballaşma imkanlarından bərabər mənfəət götürməsi üçün onlara yüksək səviyyəli təhsilə, səhiyyəyə, İKT-yə, sosial təhlükəsizlik şəbəkəsinə çıxışı lazımdır. Dövlətin rolu vətəndaşlara bu xidmətlərə çıxışlarını təmin etməkdir.

Üçüncü yarımfəsildə **"İnteqrasiya prosesləri və qlobal siyasi sistemin potensial güc mərkəzlərinin formalaşması"** prosesləri təhlil olunur. Qloballaşma - azad ticarət və milli iqtisadiyyatların daha sıx şəkildə inteqrasiya etməsinin qarşısında duran maneələri aradan qaldıran, hər bir fərdin rifahına xidmət edən, hamının, xüsusilə də yoxsul təbəqənin varlanması üçün lazımi potensiala malik proses kimi araşdırılır. Göstərilir ki, qlobal elmi-texniki inqilab, planetar informasiya məkanının yaradılması, mədəni və sosial nailiyyətlərin mübadiləsi də inteqrasiya proseslərinə kömək edir. Qloballaşma prosesində geniş iqtisadi inteqrasiyasını təmin edən iqtisadi və ya ticarət sazişləri araşdırılır, milli dövlətin rolu təhlil olunur. Belə nəticəyə gəlinir ki, dövlətlərdə qloballaşmanın praktiki gerçəkləşməsi üçün iqtisadi liberallaşmanın əldə olunması, yəni, "maliyyə sektorunun əks tənzimlənməsi, xarici valyutalara nəzarətin tədricən aradan qaldırılması və azad ticarətin genişləndirilməsi bir arada cəmləşməsi daha vacibdir.

Regional iqtisadi və ticari blokların inkişafında azad ticarətin rolu, bu istiqamətdə görülən işlər: GATT-ın azad ticarət prinsipini ali dəyər elan etməsi, ÜTT-ın yaradılmaşı ilə yekunlaşan keçmiş Ticarət və Tariflər üzrə Baş Sazişin 8 ardıcıl sövdələşməsi və qloballaşmada azad ticarət rolu, siyasi proseslərə təsiri təhlil edilir.

*Transmilli korporasiyaların qloballaşmadakı rolu,* beynəlxalq iqtisadi, siyasi qurumlar arasında əlaqələri və bu prosesdə dövlət tənzimlənməsinin əhəmiyyətini araşdırılır. Qloballaşmada beynəlxalq iqtisadi və siyasi təşkilatlara yönələn tənqid kimi onların hökumətlərin işinə müdaxiləsi və iqtisadi və siyasi islahatlara dair verdikləri təkliflərin ölkələrdəki lokal fərqləri nəzərə almadan standart şəkildə olması və bu qurumların funksiyasının üçüncü dünya ölkələrinin güc dövlətləri tərəfindən kontrol altında saxlanması olduğu göstərilir.

Regionlaşma və qloballaşma bir-birini tamamlayan proseslərdir. Regional formalaşmanın inkişafı kollektiv fəaliyyətlərdə dövlətlərin iştirak meyillərinə şahidlik etsə də, dövlətlərin bu meyli transmilli

kapitalın parçalayıcı təsirlərindən müdafiə olunmaq üçün deyildir. Praktikada dövlətlər müxtəlif səviyyəli və müxtəlif sahəli institutlarla işləyirlər; onlar beynəlxalq və regional səciyyələrin hər ikisində strategiyaları müəyyənləşdirir və çoxyönlü ticarət qaydaları ilə regional ticarət blokları arasında ziddiyyətləri görmürlər. Qloballaşma və regionlaşma strategiyaları mərkəzi idarəetmənin dövlətə həvalə olunması ilə beynəlmiləl xarakter daşıyır.

Dünyada demokratikləşmənin transmilli siyasət səviyyəsinə qaldırılması beynəlxalq siyasi inteqrasiyanın əsasını təşkil edən amillərdəndir. Belə nəticəyə gəlinir ki, institusional dizayn və institusional quruculuqda olan qüsurlar, zəif və tam qurulmamış siyasi institutlar yeni demokratik dövlətlər üçün də xarakterikdir. Dayanıqlı və konsolidə edilmiş demokratiya nəinki institusional bazaya malik olmaqla yanaşı sosial-iqtisadi sistemini möhkəmləndirən və cəmiyyətdə kök salmış demokratik vətəndaşlıq norma və dəyərlərinin müəyyən struktur özülünə, xüsusi bir "sosial kapital"a söykənməlidir.

Göstərilir ki, qloballaşma dünyanın müxtəlif sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərin diferensiasiya və inteqrasiyalaşmasında öz əksini tapır. Azərbaycanın beynəlxalq inteqrasiyada iştirakı çox perspektivlidir. İnteqrasiya nəticələrinin təzahürü bütün ölkələrdə inteqrasiya qrupları üzrə beynəlxalq ticarətin artmasıdır. Azərbaycanın hazırda, eləcə də perspektivdə xarici ticarət əlaqələri Aİ, MDB, QDİƏT və İƏT regional inteqrasiya formalarıdır. AR-nın xarici ticarətində əmtəə strukturu uzun illərdir ki, praktiki olaraq dəyişmir. Müasir reallıq mövcud yaranmış metodların dünya iqtisadiyyatı təsərrüfat strukturlarında daha səmərəli istifadəni tələb edir.

**"Qloballaşma və Azərbaycan Respublikasinda müasir siyasi proseslər"** adlı III fəslinin birinci yarımfəslində "**Azərbaycan Respublikasında qloballaşmanın siyasi proseslərin transformasiyası və inkişafına təsiri**" araşdırılır. XX əsrin 90-cı illərində AR-da dövlətin rolunun zəifləməsi ölkənin siyasi sisteminin dəqiq planlaşdırılmamış transformasiyası prosesi ilə obyektiv olaraq şərtlənmişdi. Proses nəticəsində aşkar izafi inzibati əlaqələr və mövcud institusional konstruksiyanın əsasları dağıdıldı. Yeni demokratik hakimiyyət sisteminin hələ tam olaraq başa çatmadığı bir şəraitdə AR-da institusionallaşma prosesi ziddiyyətli və münaqişəli xarakter daşıyırdı. Azərbaycan təcrübəsi təsdiq etdi ki, cəmiyyətin əsl səmərəli transformasiyası üçün dövlətdə

siyasi hakimiyyətə sahib olmaq və qabaqcıl siyasi institut və prosesləri başqalarından əxz etmək kifayət deyil.1991-ci ildə müstəqilliyin əldə edilməsilə ilə transformasiyanın üçüncü mərhələsi gerçəkləşdi. İqtidarın idarəçilik təcrübəsizliyi, yaranan qarışıqlıq, bəzi bölgələrdə separatçılığın fəallaşması, bu mərhələdə DQ-ın ermənilər tərəfindən işğal edilməsi vəziyyəti mürəkkəbləşdirdi. Bu durum, 1992-1993-cü illərdə AR-da demokratiyanın inkişafını və vətəndaş cəmiyyətinin modernləşməsini məhdudlaşdırdı. Siyasi proseslərin transformasiyanın *dördüncü mərhələsi* 1993-cü ildə Heydər Əliyevin ölkə prezidenti seçilməsi ilə başlandı. Bu Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsi və ölkənin dünya siyasətinin subyekti kimi beynəlxalq aləmdə tanınmasına gətirib çıxaran əsl demokratik dəyişikliklər mərhələsi oldu.

H.Əliyevin AR-nın Prezidenti vəzifəsinin başa çatması tərəfimizdən yeni siyasi institut və proseslərin təşkil olunma mərhələsinin sonu kimi müəyyənləşdirilir. Lakin siyasi rejimin legitimləşməsi daimi prosesdir. İ.Əliyevin Prezident seçilməsilə AR XXI əsrin ilk illərində formalaşmış strukturların dəyişildiyi siyasi institut və proseslər inkişaf mərhələsinə qədəm qoydu, 44 günlük vətən müharibəsi suverenliyi de-yure və de-fakto olaraq eyniləşdirdi, icra hakimiyyəti institutu, həmçinin yerli özünüidarə orqanlarının əsaslı transformasiyası baş verdi. Dəyişikliklər mərkəz tərəfindən regional siyasi və sosial-iqtisadi proseslərə nəzarətin gücləndirdi, qanun yaradıcılığı proses keyfiyyətcə yeni səviyyəyə yüksəltdi, nəticədə siyasi prosesinin dayanıqlığını yüksəldi, şaquli hakimiyyət möhkəmləndi, siyasi prosesdə mərkəzin rolu gücləndi. Güclü hakimiyyət mərkəzinin yaranması, digər məsələlərin arxa plana keçməsi AR-nın siyasi institut və proseslərinin çağdaş inkişafı üçün çox səciyyəvi oldu. Beləliklə, dünyanın siyasi qloballaşma prosesinin təsiri nəticəsində müasir AR-nın siyasi institut və proseslərində baş verən dəyişikliklərdə: AR-da yer alan demokratikləşmə prosesi demokratik proses və institutelərın qlobal miqyasda yayılması ilə şərtlənib; AR-da siyasi proses beynəlxalq-hüquqi normaların dövlətdaxili normalar üzərində prioritetliyinin tanınması nəticəsində ümumdünya meyilləri məcrasında inkişaf edir; siyasi partiyalar institutu transformasiyası edir, onların arasındakı ideoloji fərqlər get-gedə aradan qalxır; parlamentarizm institutu dəyişikliklərə məruz qalır.

Sosial-siyasi transformasiyanın uğuru ölkədə institusional

adekvatlıqdan və yeni sosial və siyasi institutların potensialından asılıdır. Bu mərhələdə, qlobal dünyaya inteqrasiya istiqamətində AR-nın real tərəqqisi ilk növbədə gələcəkdə də beynəlxalq siyasi, ticarət və iqtisadi təşkilatlara daxil olmaq və müxtəlif ölkələrin liderləri ilə mənalı ikitərəfli siyasi münasibətlər qurmaqla bağlıdır. Belə tədbirlər əldə edilən vaxtdan maksimal dərəcədə siyasi və iqtisadi sahələrin sabitləşdirilməsində, texniki imkanlarının restrukturizasiyasında, yüksək texnologiyalı sənaye və infrastrukturun inkişafında səmərəli istifadəyə kömək edəcək. Bu bizə yeni dünyaya itkisiz və fəal daxil olmağa və beləliklə də layiqli gələcəyə şansı əldə etməyə imkan verir. İkinci yarımfəsildə **"Qloballaşma və Azərbaycan Respublikasında siyasi strukturların dəyişməsi prosesi"** araşdırılır. Qloballaşma ənənəvi suverenliyin mövcudluğundan uzaqlaşaraq beynəlxalq sistemin struktur transformasiyası kimi qəbul edildiyindən yeni idarəetmə formalarına təcili ehtiyac yaradır. Müasir siyasi elmdə qloballaşmanın dövlət və digər siyasi strukturlara dağıdıcı təsirini izah etmək üçün son XXI əsrdə başa verən mühüm hadisələr, mövcud rejimlərin və siyasi nizamın qorunub saxlanmasında hökumət fəaliyyətlərinin səmərəliliyi və adekvatlığı araşdırılır. Göstərilir ki, məlumatların kommunikativ təsiri, ona xas olan ziddiyyətli informasiya axınının miqdarı artdıqca, siyasi sistemlərin ona cavab vermək qabiliyyəti arasında uçurum da artır. Onun təsiri sosial və siyasi sistemlər tərəfindən də yaşanır. Bu boşluq qloballaşmanın siyasi həyatda kritik vəziyyət yarada bilən mühüm təzahürlərindəndir və onun təsirinin siyasi həyata nəticələrini qiymətləndirmək çətindir. Siyasi strukturların dəyişməsi və təkamülü ilə bağlı nümunələr qloballaşma prosesində siyasi strukturların və siyasi sistemlərin yaşadığı böhranlarla müşayiət olunduğu adaptasiyanı göstərir.

Böhran hadisələrinin bəzi hallarda təkamül prosesini davam etdirməklə başa çatması, digər hallarda isə mövcud siyasi quruluşun dağılmasına gətirib çıxarması siyasi sistemlərin və digər siyasi strukturların qloballaşmanın yaratdığı çağırışlara uyğunlaşma qabiliyyətidir. 1980-ci illərdə qloballaşma əsasən qlobal bazarın qurulması şəklində iqtisadi proses kimi inkişafı, qloballaşmanın "yenidənqurma" prosesi ilə uzlaşması, daha sonra isə dünya sosialist sisteminin dağılması faktı qloballaşmanın *siyasi ölçüsünün müəyyən təza*hürü kimi qiymətləndirilir. 1990-cı illərin əvvəllərini

qloballaşmanın dünya nizamının strukturuna təsir etmiş siyasi proses kimi başlanğıc nöqtəsi hesab etmək olar. Bu qlobal siyasi quruluşa, eləcə də regionların və ölkələrin siyasi strukturlarına dərin təsir göstərir və qloballaşmanın hazırkı mərhələsi siyasi strukturları və siyasi sistemləri yeni risklərə məruz qoyur, qlobal terrorizm yüksələn dinamika ilə artaraq müasir siyasi dağılmanın mühüm amillərindən birinə çevrilib. KİV-lə, eləcədə internet vasitəsilə təşkil edilən və əlaqələndirilən transmilli və trans-sərhəd etiraz hərəkatları tendensiyası getdikcə daha çox yayılır. 2008-2013-cü illərin böhran hadisələri "konkret olaraq "qloballaşmanın in- kişafının müəyyən andan etibarən Amerika və Qərb hegemonluğunun qurulmuş modeli ilə bir araya sığmadığı" faktını əks etdirir.[15] Əvvəlki mərhələdə *çoxmillətli dövlətlərin parçalanması tendensiyası* (SSRİ, Çexoslovakiya və Yuqoslaviya) universal olmasa da, real təhlükə yaradır, Avropa, Asiya, Afrika və Amerikanın bir çox ölkəsini əhatə etmək baxımından ən azı müstəsna olaraq geniş xarakter daşıyır. Avropa dövlətlərində davam edən parçalanma tendensiyası vahid dövlətin qorunub saxlanmasını şübhə altına alır. Ərəb baharı və onun mənfi nəticələri, etno-konfessional qarşıdurma amilinin Suriya, İraq və Türkiyəyə, Livan, İsrail, Fələstin, Yəmən, İran, Səudiyyə Ərəbistanı və Fars körfəzinin digər ölkələrinə də təsir etməsi münaqişənin daxili münaqişədən tam miqyaslı regionala keçməsi ssenarisi daha çox ehtimallı edir. Qeyd olunanlar qlobal transformasiyalar kontekstində *regional siyasi inkişafın* dəyişməsini göstərir.

Qloballaşmanın AR-da daxil olmaqla *son onilliklərdə* ən çox dövlətlər və siyasi partiyalar kimi şaquli şəkildə təşkil olunmuş *siyasi strukturlara* təsirinin təkamül və bəzi dağıdıcı dəyişikliklərə gətirib çıxarması təhlil edilir, göstərilir ki, hər bir ölkədə *solların tarixi* məğlubiyyətə uğraması siyasi bir fakt kimi qəbul edilir. Ümumilikdə qloballaşma YŞ regionunda siyasi proseslərin transformasiyası amili kimi çıxış etmiş, onun subyektləri YŞ regionunun siyasi inkişafına təsirini (əksər dövlətlərdə dağıdıcı) göstərmiş və göstərməkdədir. Bu tendensiyalar dövlət institutunun özünə, eləcə də digər siyasi institutlara ciddi problem yaradır.

Üçüncü yarımfəsldə **"Qloballaşma şəraitində dünya dövlətlərinin**

---

[15] Гринин Л.Е. Глобализация тасует карты (Куда сдвигается глобальный экономико-политический баланс мира) // Век глобализации. 2013. № 2. С. 63-78

**müasır siyasi proseslərdə iştirakı"** araşdırılır. Qloballaşmış siyasi proseslər qloballaşmanın siyasi aspekti kontekstində baş verən proseslərdir. Nəticədə dünya siyasi sisteminin struktur transformasiyası və yeni qlobal siyasi aktorların meydana çıxması, onlar arasında siyasi qarşılıqlı əlaqənin və asılılığın artması, qlobal siyasi arxitekturanın və iyerarxiyanın qurulması baş verir. Siyasi prosesin subyektlər spektrinin formalaşması baxımından kəmiyyət xarakteristikası siyasi inkişafı təmin edən keyfiyyətcə denominasiyalı siyasi dəyişikliklərə gətirib çıxarır. Keyfiyyətli siyasi dəyişikliklər hakimiyyət xüsusiyyətləri ilə əlaqələndirilir, siyasi qərarlarda təzahür edən tsiklik, dalğalı və diskret xarakter daşıyır. Siyasi proses siyasətin dinamik xarakteristikası olduğundan siyasi prosesin mövcudluq formaları siyasi dəyişikliklər və siyasi inkişafdır.

Göstərilir ki, soyuq müharibə sonrası ikiqütblülükdən çoxqütblüyə və monosentriklikdən çoxmərkəzliyə keçid prosesində qlobal dünyanın geosiyasi məkanının yeni xüsusiyyətləri: dünya siyasi proseslərinin dinamikasının artması; yenidən konfiqurasiya, parçalanma, iyerarxiya, qlobal dünyanın arxitekturasında dəyişiklik; yeni geosiyasi oxların formalaşması; blok xarakteri, yaranan güc mərkəzləri arasında rəqabətin dağılması və kəskinləşməsi meydana çıxır.

Qlobal dünyanın yeni strukturunun formalaşması onun geosiyasi mənzərəsinin dəyişməsinə təkan verir. Qlobal dünyanın iyerarxiyası güc mərkəzləri, güc mərkəzi statusuna iddialılar, iqtisadi, siyasi, hərbi və sivilizasiya qütbləri, qlobal güc, regional güc kimi struktur elementlərlə təmsil olunur. Struktur elementlərin bu iyerarxiyada yer uğrunda mübarizəsi dünyada qlobal siyasi proseslərin gedişatını və onun gələcək inkişaf ssenarisini müəyyən edir. Dəhlizlər və kommunikasiyalar uğrunda mübarizə fonunda yeni dünya nizamına keçid prosesində 2022-ci ilin fevralında başlayan Rusiya-Ukrayna müharibəsi eyni sivilizasiyaların toqquşmasını labüd etdi. Qlobal siyasi proseslərin mürəkkəbləşməsi göstərir ki, müasir dövrə xas olan "qlobal qeyri-müəyyənlik" şəraitində siyasi qloballaşmanın mahiyyəti və onun nəticələri, qloballaşmanın siyasi proseslərə təsiri və bu təsirin emprik təyini hələ də kifayət qədər tətqiq edilməmişdir. *Qloballaşmanın siyasi proseslərə təsirinin emprik yoxlanılması* araşdırılır. Qloballaşma prosesini mahiyyətinə uyğun olaraq KOF Qloballaşma İndeksi cəmiyyətin iqtisadi, siyasi və sosial aspectlərini ölçən dəyişənlərini əhatə

edir və hazırda buraya 24 göstərici əsasında ölçülən de-fakto və 19 göstərici əsasında ölçülən de-yure qloballaşma indeksi daxildir. Ölçmələr və əsasında qloballaşmanın siyasi rejimlərə təsiri, kəmiyyət məlumatları əsasında ayrı-ayrı ölkələrdə siyasi rejimlərin zamanla transformasiyası tendensiyalarını müəyyən edilmişdir.

Polity indeksinin əsas göstəricisi avtokratik və demokratik xüsusiyyətlərin nisbəti ilə xarakterizə olunan siyasi rejimin vəziyyəti kimi qəbul edilən siyasətdir. Polity avtokratiyanın ən yüksək səviyyəsindən demokratiyanın ən yüksək səviyyəsinə qədər sıralanır. Siyasiliyin yekun göstəricisi demokratiya və avtokratiyanın dəyərlərinə əsasən hesablanır. Müəllif tərəfindən KOF, Polity IV və Polity 5 indeksi çərçivəsində ölçmələrin nəticələrinə uyğun cədvəllər tərtib olunmuşdur. Cədvəllərdə əks olunan qloballaşma və siyasi rejim indekslərinin statistik təhlilinin nəticələri göstərir ki, qloballaşma ilə siyasi rejim arasında ikitərəfli əlaqə var. Münasibətlər təbiətcə güclü deyil, zəifdir və bu, qloballaşmanın özünün siyasi rejimi dəyişdirməyə qadir olmadığını, siyasi rejimin dəyişmə sürətinə təsir göstərə biləcəyini göstərir.

2019-cu ildə qlobal güc olaraq ABŞ inkişaf etmiş ölkə tərifi üçün təklif etdiyi sərt meyarlar təhlil olunur və belə nəticəyə gəlinir ki, ölkələrdə iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün siyasi rejimlərə tələblər artır, bununla əlaqədar olaraq onlar siyasi sistemi elə tənzimləməli olurlar ki, qloballaşmanın faydalarını əldə etmək və hakimiyyəti saxlamaq imkanını təmin etsinlər. Bu halda demokratiya, avtokratiya və anokratiya bu taktikanı çox uğurla davam etdirir.

IV yarımfəslində **“COVİD-19 pandemiyasının qloballaşmaya və Azərbaycanda müasir siyasi proseslərə təsiri”** araşdırılır. Göstərilir ki, qloballaşmanın verdiyi öhdəliklər pandemiyanın nəticələri ilə mübarizə zamanı dövlətləri eyni problemlərin öhdəsindən gəlmək üçün birgə hərəkət etməyə məcbur etdi. Pandemiya siyasət dəyişikliklərini əlaqələndirən hökumətlərin, medianın, sosial şəbəkələr və vəzifəli şəxslərin və ictimaiyyətə cavab verən qurumların əhəmiyyətini ortaya çıxartdı. İnstitusional bərabərsizliklər və hökumətin reaksiyasında variasiyalar, pandemiyanın yoluxucu təbiəti sağlamlıq nəticələrində əhəmiyyətli fərqlər yaratdı. COVID-19 bərabərsizlikləri güc ləndirdi, yeni böhranlar və geniş *sosial və siyasi* təlatümlər yaratdı.

Pandemiyadan əvvəlki bərabərsizlik, coğrafi fərqlər, sosial resurslar arasında qarşılıqlı əlaqə və hökumətin fərqli reaksiyaları xəstəliyin

yayılmasına əhəmiyyətli təsir göstərdi. Pandemiyadan gələn zərərlər kasıb ölkələrdə cəmləşdi. Siyasi liderlərin vahid reaksiyasının olmaması ictimaiyyətdə qütbləşmiş reaksiya ilə üst-üstə düşdü. İki ildən artıq virusla yaşamaq dünya ilə qarşılıqlı əlaqələri yenidən formalaşdıraraq ölkələr üzrə vətəndaşlarda iqtisadi, fiziki, sosial və əqli rifahı üçün əhəmiyyətli problemlər yaratdı, iş, sosiallaşma və öyrənmə rejimlərini pozdu, fərdi həyata təsir etdi. İnformasiya mübadiləsi siyasət və ictimai reaksiya arasında qarşılıqlı əlaqədə əsas oldu. Səhiyyəyə çıxış, qayğı və ölüm nisbətində bərabərsizliklər gücləndi. Prosesdə qlobal kapitalın inzibati güc mərkəzlərinin yeni dünya düzəninə can atması, süni intellekt, robot həyatı, zombi siyasəti və s. faktiki reallıqların ifadə edilməsi çərçivəsində bəşəriyyət pandemiya ilə bağlı şərtlərin müəyyənləşdirilməsində yeni mərhələyə keçdi.

Biliyin paylaşılması və elmi məlumatların etibarlılığının sorğulanması, idarəetmə uğurları, demokratiyanın gələcəyi ilə bağlı müzakirələr, iş həyatının və ev ofis sisteminin genişləndirilməsi, süni intellektlə dəstəklənən kütləvi müşahidə sistemlərinin yayılması və s. başlıqlar qloballaşma prosesi ilə pandemiya arasında qarşılıqlı iqtisadi əlaqəni müəyyən edən göstəricilərə aid edildi.

Mübarizə prosesində COVID-19 epidemiyası ilə bağlı tələb olunan fədakarlıqlara demokratiyalar daha tez və qətiyyətlə cavab verə bildiklərini vurğulasa da, Çinin uğurunu, ABŞ-ın isə uğursuzluğunu izahı üçün istifadə edilən arqumentlər demokratik idarəçiliyin dəyəri və gələcəyi ilə bağlı narahatlıqlara səbəb oldu. Virusla mübarizə və postepidemioloji böhranı aradan qaldırmaq üçün demokratik prinsiplərdən uzaqlaşma zəruri tədbirə çevrildi. Təcrübələr göstərdi ki, əsas təyinedici olan quruluşun demokratik və ya totalitar olması deyil, dövlət qabiliyyətli yanaşmadır.Dövlət qabiliyyətinin böhranların və fövqəladə halların yaranması və pis təsirlərinə qarşı qalxan rolunu oynaması, iqtisadi bərabərsizlik isə böhran zamanı pis təsirlərin şiddətinin artması, epidemiyadan sonra qlobal güc balanslarının Asiya cəmiyyətlərinə keçməsi və bu coğrafiyanın mövcud idarəetmə formalarının qloballaşması narahatlığının ilkin nəticəsi hesab oluna bilər.

AR-nın (2019) Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin sonuna kimi uzadıldı. Pandemiya ilə qlobal mübarizədə ilk ölkələrdən olaraq ÜST-ə 5 mln $ donor ianəsi etdi, dünya birliyinin əksəriyyəti COVID-19-a qarşı AR-nın təşəbbüsü ilə vahid platforma formalaşdırdı. Prezident

İ.Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında QH-nin pandemiya ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. BMT BA-nın epidemiya ilə mübarizə sahəsində qlobal tədbirinin Xüsusi Sessiyasında AR təşəbbüsü ilə BMT BA-da və BMT-nin İHŞ-da vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi, qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu. 2 mart 2023-cü ildə QH-nın COVID-19-a qarşı mübarizə üzrə Bakıda keçirilən Zirvə görüşündə Prezident İ. Əliyev AR QH-nın ehtiyacı olan üzv ölkələrinə maliyyə və hümanitar yardım göstərməyə davam edəcəyini və Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemicyadan sonrakı bərpasını dəstəkləmək üçün bəyan etdi ki, AR ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 mln $ məbləğində vəsait ayırıb. Pandemiyanın qloballaşmaya təsir etdiyi əsas yolları belə xülasələndirmək olar: Pandemiya qlobal təchizat zəncirlərini pozdu, mal və xidmətlərin hərəkətinə məhdudiyyətlər tətbiq etdikcə, beynəlxalq ticarət daraldı. Bu, istehsal şəbəkələrinin yenidən formalaşdırılması ilə bağlı müzakirələrə səbəb oldu, rəqəmsal texnologiyaların və uzaqdan iş təcrübələrinin qəbulunu sürətləndirdi, qlobal səhiyyə problemlərinin həllində qlobal idarəetmə və əməkdaşlığa ehtiyacı vurğuladı, millətçi meylləri və proteksionist tədbirləri gücləndirdi, səhiyyə təhlükəsizliyi və qlobal sağlamlıq əməkdaşlığının rolunu artırdı, qlobal qarşılıqlı əlaqə qavrayışını yenidən formalaşdırdı.

COVID- 19 pandemiyası XXI əsrin ən ciddi böhranı kimi ölkələrə *qlobal nizamı* dəyişdirən yeni dönüş nöqtələri gətirdi, dünya yeni bir prosesə qədəm qoydu, ölkələr pandemiya sonrası pandemiyadan əvvəl mövcud olan milli/transmilli problemlər, epidemiya ilə dərinləşən çətinliklər və ortaya çıxan yeni çağırışlarla mübarizə nümayiş etdirirlər. Epidemiya dövründə çoxtərəflilik üçün əsas təşəbbüs olan peyvənd diplomatiyası ölkələrə elmi inkişaflarını göstərmək, beynəlxalq arenada təsirlərini artırmaq üçün yumşaq gücdən istifadə imkanı verdi. Bu, onların siyasi sistemləri, bazarları və ideologiyalarının nisbi faydalarını vurğulamaq üçün bir fürsət olaraq görüldü. Epidemiyadan əvvəl beynəlxalq yardıma ehtiyac olan bölgələr epidemiyada arxa plana keçdi. COVID-19 Şimali Afrika, YŞ və Sub-Sahara Afrikasında mövcud böhranları daha da gücləndirən təhlükə multiplikatoruna çevrildi, geosiyasi səbəblər enerji resurslarından yarımkeçiricilərə qədər bir çox kritik və

strateji əhəmiyyətli sektorlarda ticarətin qarşısı alındı. COVID-19 və Ukrayna müharibəsi beynəlxalq sistemdə təcili həllər tələb edən boşluqların iqtisadiyyata qlobal təsirinin idarə edilməsi, davamlı inkişaf məqsədlərində iqlim böhranı ilə mübarizə fəaliyyətlərinin planlaşma mexanizmlərinin yoxluğunu vurğuladı. Pandemiya MANBRIC konvergensiyasını, Kİ-ın son mərhələsinin başlanğıcını sürətləndirdi, e-hökumətin e-dövlətə çevrilməsinə təsiri etdi, ictimai həyatın tənzimlənməsinə yaranan təcili ehtiyac sosial- texniki özünütənzimləmə sistemlərin inkişafına təkan verdi. Bu isə cəmiyyətdə sosial-siyasi münasibətlərdə dəyişikliklərlə nəticələnəcək.

Yarımfəsildə pandemiyanın Kİ-ın yaxınlaşan son mərhələsinin sürətlənməsinə və sosial-texniki özünütənzimləyən sistemlərin formalaşmasına, inkişafının gələcəkdə insanların sosial davranışına yeni texnoloji dalğanın inkişaf sürətinə və kanalına da təsiri araşdırılır. Belə nəticəyə gəlinir ki, pandemiya sosial-texniki özünütənzimləmə sistemlərinin inkişafına təsir etdi və bu sosial davranışa və elektron dövlətin formalaşmasına özünü göstərməyə başladı. Pandemiyada təhlükəsizlik tədbirlərinə nəzarətin təxirəsalınmaz olması problemi daha da dərinləşdirdi, bu istiqamətdə gələcək inkişafın keyfiyyət dəyişikliklərinə səbəb olacağını göstərdi.

Pandemiya sonrası informasiya cəmiyyətinin lokallaşdırılması və cəmiyyətin rəqəmsallaşması, rəqəmsal sahənin inkişafının normativ bazasının, kiber təhlükəsizliyin yaradılması, rəqəmsal məkana çıxışda bərabərsizliklərin aradan qaldırılması, məlumatların idarə edilməsinin təmin edilməsi və məxfiliyinin qorunması, rəqəmsal sahədə insan hüquqlarının təməl üzərində qurulması, süni intellektin və rəqəmsal transformasiyanın əmək və istehsal modellərinə təsirini araşdırmaq üçün rəqəmsal məkanın qlobal əməkdaşlığının məhdud çərçivəsində rəqəmsal idarəçiliyi qurmaq və idarə etmək vacib görünür. Sosial-texniki özünütənzimləyən sistemlər sosial-siyasi münasibətlərin dəyişməsi baxımından güclü təkan olacaq.

Ümumilikdə COVID-19 pandemiyasının müasir siyasi proseslərin strukturuna əsaslı təsiri belə xülasələndirilir: *Pandemiya siyasətində ictimai sağlamlıq əsas prioritet* kimi qəbul edildi. Dünyanın hər yerində *hökumətlərin fövqəladə vəziyyət səlahiyyətlərinə* müraciət edərək böhrana cavab vermək üçün *icra hakimiyyətlərinə* daha geniş səlahiyyətlər verməsi onlara adi qanunvericilik proseslərindən

keçmədən kilidləmə, səyahət məhdudiyyətləri və biznesin bağlanması kimi tədbirləri həyata keçirməyə imkan verdi. İcra hakimiyyətində səlahiyyətlərin cəmləşməsi nəzarət və tarazlığın aşınması və səlahiyyətdən sui-istifadə potensialı ilə bağlı narahatlıqları artırdı, qərarların qəbul edilməsində elmi ekspertizanın vacibliyini vurğuladı, siyasi proseslərdə rəqəmsal texnologiyaların qəbulunu sürətləndirdi, siyasi qütbləşməni və dezinformasiyanın yayılmasını gücləndirdi, seçki proseslərini pozdu və səsvermənin təhlükəsizliyi ilə bağlı suallar doğurdu, qlobal böhranların həllində beynəlxalq əməkdaşlığa və diplomatiyaya ehtiyac olduğunu, eləcə də böhranlara cavab verməkdə sosial birliyin və həmrəyliyin vacibliyini vurğuladı, sosial və irqi bərabərsizlikləri üzə çıxartdı və daha da gücləndirdi, ictimai siyasi institutlara və rəhbərliyə inamına əsaslı təsir göstərdi.

**Nəticədə** tədqiqata yekun vurulur, ümumiləşdirmələr əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülür. Müəllif belə qənaətə gəlir ki, qloballaşma xalqlar arasında iqtisadi qarşılıqlı asılılığın artmasına, BMT, ÜTT, BVF və Aİ kimi regional blokların, dövlətüstü təşkilatların yaranmasına, eləcə də ölkələr arasında siyasətin yaxınlaşmasına və uyğunlaşmasına səbəb oldu, qeyri-dövlət aktorlarının, transmilli korporasiya, QHT-lərin yüksəlişini asanlaşdırdı, informasiya və kommunikasiya texnologiyalarına çıxışda inqilab etdi, bəzi kontekstlərdə populizm və millətçiliyin yüksəlişini də gücləndirdi. Qloballaşma müasir siyasi proseslərin strukturunu dəyişdirdi. O, dövlət suverenliyi ilə bağlı ənənəvi anlayışlara meydan oxudu, iqtisadi qarşılıqlı asılılığı təşviq etdi və millətlərüstü təşkilatların və qeyri-dövlət subyektlərinin yaranmasına səbəb oldu. O, həm də transmilli hərəkətləri asanlaşdırdı, siyasət konvergensiyasını formalaşdırdı və mədəni dinamikaya təsir etdi. Pandemiya sağlamlıqla bağlı fövqəladə hallarda qlobal və milli hazırlığın zəif cəhətlərini üzə çıxartdı. Hökumətlər fövqəladə hallara cavab planlarını, səhiyyə sistemlərini, təchizat zəncirlərini yenidən nəzərdən keçirməli oldular. Siyasi diskurs dayanıqlığın yaradılması, ictimai səhiyyə infrastrukturunun gücləndirilməsi və gələcəyə hazırlığa sərmayə qoyuluşu ilə bağlı müzakirələrə doğru yönəldi. Qloballaşmanın bəzi aspektləri çağırışlar və transformasiyalarla üzləşə bilsə də, böhranın qlobal şəbəkələrdə və əməkdaşlıqda innovasiyalara, dayanıqlığa və uyğunlaşmaya təkan verməsi də mümkündür.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**


1. Qloballaşmanın siyasi proseslərə təsiri //-Bakı: AMEA Məruzələr, №, 201, s.156-161
2. Глобализация и государство // Этносоциум и межнациональная культура. -2012, № 6(48). -с.140-147
3. Qloballasma, iqtsadi dəyismələr və dövlətin rolu // – Bakı: Tarix və onun problemləri. - 2012, № 2. - s.303-310
4. Глобализация, социальная политика и роль государства / Современные проблемы гуманитарных и естественных наук. Международная научно-практическая конференция. -2012, - с.643-648
5. Qloballaşma, müasır dövlət və yeni tələblər // – Bakı: Tarix və onun problemləri, – 2014, №1, -s.197-204
6. Qloballaşma, dövlət funksiyaları və suverenlik məsələləri // -Bakı: AMEA, Gənc aspirantların əsərləri məcmusu, -2014, - s.225-229
7. Qloballşma kontekstində Avropada miqrasiya/Azərbaycan Respublikasında miqrasiya siyasəti və insan hüquqları. Beynəlxalq konfrans. -Bakı, -2014, -s.141
8. Qloballaşma siyasi proseslər sistemində // -Bakı: Geostrategiya, -2014, №1, -s.72-80
9. Qloballaşma və sosial siyasətlər / Internatıonal Euroasıa Congress on Scientific Researches and Recent Trends. 10 February 16-17, 2023.- Baku, Azerbaijan, pp.913- 917.
10. Qloballaşmanın siyasi proseslərə təsiri. //-Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. -2022, № 4 (80), -s.251-260.

Dissertasiyanın müdafiəsi “18” mart 2024-cü il saat 11:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “16” fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.10.2023
Kağızın formatı: A5
Həcmi: 39160
Tiraj: 100